Günay Səma ŞİRVAN
*(Voronej, Rusiya Federasiyası)*

# ŞUŞAYA NƏ VAXT GEDİRİK?



Tanrının taleyimizə yazdığı qürbətə yol alarkən ağlımıza da gəlmir ki, oxuduğumuz kitablardakı qəhrəmanların gününə düşəcəyik. Başqa həyat qurmaq, yeni başlanğıclara imza atmaq deyərkən içimizdəki yurd həsrəti ilə başa çıxa bilməyəcəyik...

Buna öyrəşmək çətindir. Şəhərin geniş və tarixi hadisələrə şahid qədim küçələrindən İnqilab prospekti (Проспект Револююции) ilə irəliləyirsən... Beynin ətrafda eşidilən müxtəlif dillərdəki danışıqlara etinasızdır: ən çox rusca danışırlar, ingiliscə nəyisə müzakirə edən tələbələrə, dərdləşən özbəklərə, türkmənlərə, söhbətləşən ukraynalıya, moldovana, belarusa da rast gəlirsən. Yüzlərlə səs içindən o doğma, şirin avaz havanın bağrını yarır: "Salam, şuşalı balası! Qarabağa nə vaxt gedirik?" Qəribliyini unudur, səsə çevrilirsən... Tanımadığın doğma adamları sevgi ilə izləyirsən... Qürbətdə Vətən Səsdən başlayır.

Hara gedirsən-get, ümid və işıqla böyüyən içindəki uşaq yetkin biri olanda da onları itirməz. Mənim yaşıdlarımın uşaqlığı vurğunu olduğumuz yurdumuzun ən qanlı-qadalı illərinə şahidlik edib. Xaincəsinə Vətənimizin sinəsində açılan Qarabağ adlı yaranın acısı ilə nə daddığımız çörək, nə içdiyimiz su olub... Buna görə Azərbaycandan özümüzlə gətirdiyimiz ən böyük mənəvi yük torpaqlarının bütövlüyünə, şəhidlərin qanının, anaların ah-naləsinin yerdə qalmayacağına, körpələrin göz yaşlarının quruyacağına inam olub. Qarabağdan olmasaq da, qarabağlı olmuşuq.

Yadımdadır, ilk dəfə "Vətənini nə üçün sevirsən?" – sualını eşidəndə özümü itirmişdim. Məgər doğulduğun, havasına, torpağına, dağına-daşına, ağacına, otuna-alağına, suyuna vurğun olduğun, tarixi, adət-ənənələri, qəhrəmanları ilə öyündüyün, iliyinə qədər onunla nəfəs aldığın Vətənini "nə üçün"sə sevməlisən? Vətənə məhəbbətin "əsas arqumentləri" haqqında kitablarda çox yazılıb. Bu arqumentlər həm konsepsiyanın tərifinə, həm də vətən sevgisi haqqında düşüncələrə aiddir. Ən çox yayılmış tezislər:

– vətənpərvərlik əsl və saxta olur
– hətta ölüm təhlükəsi əsl qəhrəmanı qorxutmur
– müharibə dövründə vətənpərvərlik təzahürü artır
– əsl inanclılar mənəvi dəyərləri qoruyurlar.

Torpaqlarımızın 30 illik əsirlik həyatına, insanlarımızın doğma yurdlarından üç onillik ayrılıq iztirablarına son verən 44 günlük Vətən savaşı göstərdi ki, bu tezislər kağız üzərində yazılı, quru sözlər deyil, reallıqdır. Səfərbərlik elan ediləndə on minlərlə vətən oğlunun "Ya Qarabağ, ya ölüm!" – deyə önə atılması tarixi zəfərimizi şərtləndirdi. Başımızı uca edən, alnımızdan "məğlub ölkə" damğasını silən, dilindən, dinindən, milli kimliyindən asılı olmayaraq – hər bir Azərbaycan əsgərinin qarşısında baş əyirik.

Əbədiliyə qovuşan üç mindən artıq Vətən savaşı şəhidlərimizin xatirəsini hörmətlə anırıq. Əbu Turxan deyirdi: "Əbədi olanlar zamana möhtac deyillər. Zaman əvvəli və sonu olanları ölçmək üçündür". Millətimiz var olduqca şəhidlərimiz istər fərdi, istər ictimai yaddaşda daim yaşayacaq.

Son müşahidələr göstərir ki, Qarabağ hər bir azərbaycanlının təfəkküründə müqəddəs anlayışdır. İnsanlar öz şərəf və ləyaqətləri kimi dəyərlərlə, bayraq, himn kimi dövlət atributları ilə bir səviyyədə müqəddəslik mərtəbəsində tuturlar Qarabağı. Bəlkə də, buna görə dünyanın ən qədim homosapiens məskənlərindən birində işğalçıların süni şəkildə müharibə ocağı yaratması, dinc əhaliyə hərbi təcavüz etməsi nə Yer, nə Göy qanunlarına sığdı. İsbat olunmuş bir teorem Qarabağda bir daha sübut olundu: hüquqdan qaça bilərsən, Haqdan yox!

7-8 il əvvəl olardı. Lenin meydanı – 8 ünvanında yerləşən "MariNika" turist firmasından Yasnaya Polyanaya gəzinti götürmək istəyirdik. Sənədləri qeydiyyyata salanda Qarabağa turist səfərləri elanı diqqətimizi çəkdi. 20 ildən artıq həsrət qaldığımız, yağı tapdağında olan dilbər guşəmizin təbii sərvətlərinin fürsətçi işbazlar tərəfindən amansızcasına, həm də qeyri-qanuni istismarı vətənini sevən kimsəni məsələyə soyuqqanlı qalmağa qoymazdı... Amma mübahisə və hüquqi müdaxilə nəticəsində Qarabağa Azərbaycanın icazəsi olmadan gedilməsinə, belə səfərlərin ləğvinə nail olduğumuz o günlərdəki əlacsızlığımızı da təsvir edə bilmirəm. Sən haqlısan, əzəli torpaqlarının haqqını tələb edirsən, amma...

Mən cismən ayrı düşdüyüm Vətənimdən ruhən heç vaxt ayrılmadım. İş yerim, mehriban kollektivimiz, yüzlərlə tanışım olsa da, özümü hər zaman yad hiss etdim. Sakitliyi Azərbaycandan danışmaqda, onun milli maraqları fonunda təbliğinə vaxt ayırmaqda tapdım... Niyə yazdım? Bu yüz minlərlə azərbaycanlının xaricdəki yaşam tərzidir, oxuyanlar bilsin, istədim. Eləcə də dünyanın nüfuzlu ali təhsil ocaqlarında, elm mərkəzlərində çalışan minlərlə azərbaycanlı ziyalı, diasporlarda fəaliyyət göstərən iş adamları uzun illərdir yorulmadan Azərbaycan həqiqətlərini, ölkəmizin haqlı mövqeyini təbliğ edir, yerli ictimaiyyətin diqqətini Ermənistanın işğalçılıq siyasətinə yönəltməyə çalışırlar. "Qarabağ Azərbaycandır!" şüarının ətrafında cəmləşən yüz minlərlə insan Vətən savaşı dövründə orduya maddi və mənəvi yardım aksiyalarında iştirak etdi. Bu gün də şəhid və qazi ailələrinə kömək, "Yaşat" fonduna maddi dəstək olmaqla davam etdirilir. Gücümüz birlikdədir və bu fikrin nə qədər doğru olduğunu zaman bir daha göstərdi.

Qarabağ və onun ətrafındakı 7 rayon Azərbaycan ərazisinin 20%-nin işğalı demək idi. Bu gün artıq o torpaqların 75%-i azadlığına qovuşub. Azərbaycan əsgəri mümkünsüzü mümkün edib. Biz ümidlə böyüdük. İçimizdəki Qarabağın qayıdacağına inam heç zaman itmədi. Ümid qalib gəldi.

Bir ev – o evin timsalında yurd dağıdıla, xarabazara çevrilə bilər. Amma o evin – yurdun təməlini təşkil edən sevgi ordaysa, ən sadə koma – dümdüz edilmiş yurd yeri dirçələ, əvvəlkindən də möhtəşəm halına qayıda bilər. Bizim Yurd sevgimizdən sual oluna bilməz... Bu mənada ürək ağrısı ilə videolarını izlədiyimiz "ruhlar şəhəri" Ağdamın, oda verilən Kəlbəcərin, Laçının, viranə qoyulan Cəbrayılın, Zəngilanın, Qubadlının, Füzulinin, gülləbaran edilmiş Şuşanın yaralarını saracaq ən böyük dəva EŞQ (ruhsal ehtiyac) olacaq. Əziz Qarabağ! Sevgi qayğıdır, təmənnasızlıqdır, məsuliyyətdir, etibardır, dəyişiklikdir. Sən azadsan və biz səni illərdir könlümüzdə bəslədiyimiz sevgi ilə – əməklə, tutquyla, iradəylə dirçəldəcəyik...

Bu yazını işlərkən kütləvi informasiya vasitələrindən xilaskar Azərbaycan Prezidentinin Şuşa səfəri yayımlanır. İş otağının qapısını açan oğlum "Ana, prezidenti gördün? Biz Şuşaya nə vaxt gedirik?" – yarızarafat soruşur. Bu sual beş il əvvəl verilsəydi, inciyərdim, bəlkə də... Dərdlə zarafat etməzlər axı. Bu günsə qürurluyam. Uşaq qabağında dili gödək deyiləm.

Həyatı enerji və yaşam ehtirası ilə dolduran arzular etməkdən, xəyallar qurmaqdan heç vaxt usanmadım. Arzuların həyata keçmək kimi möcüzəvi xassəsi var çünki... Kim bilir, bəlkə, bir gün Azərbaycan dili və ədəbiyyat müəllimi kimi elə Şuşada işləyəcəm... Oğlum hərbi təhlükəsizlik, qızım həkim kimi Şuşada qaytaracaq Vətənə övlad borcunu... Kim bilir... Xəyallar qurmaqdan qorxmayın.